بسم الله الرحمن الرحيم

14 məsumun (ə) həyatı

# İmam Həsən (ə)




**Kitabın adı: İmam Həsən (ə)**
**Tərcümə edən: Seyyid Zahir Cavadov**
**Çap tarixi: 2018**
**Çap növbəsi: Birinci**
**Tiraj: 1000**

**Издательство «Свет»**
**Типография «Махаон», 2018**

**ISBN 5-18-040518-3**

Adı: Həsən (ə)
Məşhur ləqəbləri: Müctəba, Sibti-əkbər
Künyəsi: Əbu Məhəmməd
Atası: Əli (ə)
Anası: Fatimə (ə)
Doğum tarixi: 3-cü hicri-qəməri ili, 15 ramazan
Doğulduğu yer: Mədinə
İmamlıq müddəti: 10 il
Ömrü: 47 il
Şəhadət tarixi: 50-ci hicri qəməri ili, 28 səfər
Şəhid olduğu yer: Mədinə
Qatilinin adı: Cödə (Müaviyənin göstərişi ilə imamı zəhərləmişdir.)
Dəfn yeri: Mədinə şəhəri, Bəqi qəbiristanlığı



## İmam Həsənin (ə) viladəti

Ramazan ayı idi. Peyğəmbərin (s) Mədinəyə gəlişindən üç il ötmüşdü. Oruc tutmuş qadınlar Fatimənin (ə) evinə gəldilər və xanımın otağına keçdilər. Fatimə (ə) yatağında istirahət edirdi və dünyaya gələcək övladı barədə düşünürdü.
Fatimə (ə) gözlərini yummuşdu və Allahla danışır, övladının sağ-salamat dünyaya gəlməsi və ağrı çəkməməsi üçün Allahdan kömək istəyirdi.
Qadınlardan biri otaqdan çıxaraq dedi: – Muştuluğumu verin! Körpə dünyaya gəldi! Peyğəmbərin (s) ilk nəvəsi dünyaya gəldi!
Bu vaxt Əli (ə) məsciddə idi və Peyğəmbərlə (s) birlikdə namaz qılırdı. Məscid Fatimənin (ə) evinin yanında idi. Övladının dünyaya gəlməsini Əliyə (ə) xəbər verdilər. Həzrət sevincindən təbəssüm edir və Allaha şükür edirdi. Bu xəbəri eşidən Peyğəmbərin (s) də sevinci aşıb-daşdı. Əli (ə) Fatiməni (ə) görmək üçün məsciddən evə gəldi və onun vəziyyətini soruşdu. Sonra isə körpəni qucağına alaraq gül kimi yanaqlarından öpüb, bədənini iyləməyə başladı.



Fatimə (ə) dedi: "Əlican! Oğlumuza bir ad qoy." Əli (ə) dedi: "Yaxşı olar ki, gözləyək Peyğəmbər (s) gəlsin və oğlumuzun adını özü qoysun."
Bu vaxt qapı döyüldü və Peyğəmbər (s) içəri daxil oldu. Həzrətin sevincindən gözləri parlayırdı. Sanki itirdiyi şeyi tapmışdı. Qızının yatağına tərəf yaxınlaşdı və onu görməklə həzrət daha da sevindi. Sonra nəvəsini soraqladı. Qadınlardan biri körpəni bələkdə gətirərək Peyğəmbərin (s) qucağına verdi.
Allahın elçisi körpə nəvəsini iki əli ilə götürərək yuxarı qaldırdı, əvvəl onu iylədi, sonra da alnından öpdü. Həzrət üzünü Əliyə (ə) tutaraq dedi: "Körpəyə bir ad seçmisənmi?" Əli dedi: "Xeyr. Yaxşı olar ki, onun üçün siz ad seçəsiniz." Peyğəmbər buyurdu: "Mən də istəyirəm ki, Allah nəvəm üçün ad seçsin." Bu vaxt Cəbrail nazil oldu və dedi: "Ey Məhəmməd! Allah sənə salam göndərir, nəvənin doğulmasına görə səni təbrik edir və onun adını Həsən qoyur."



Peyğəmbər (s) çox sevindi. Körpə Həsəni qucağında saxlayıb, sağ qulağına azan və sol qulağına iqamə oxudu. Sonra qoyun qurbanlıq etdi və onun ətini bişirərək, hamını qonaq çağırdı.
Allahın elçisi (s) imam Həsənin (ə) təvəllüdünün yeddinci günü körpənin saçını qırxıb, çəkisi miqdarında yoxsula gümüş pul sədəqə verdi.

### İmam Həsənin (ə) gözəlliyi və əzəməti

İmam Həsən (ə) elə vüqarlı cima və görkəmə malik idi ki, nəqllərə görə, Peyğəmbərdən (s) sonra heç kəsin onun kimi qamət və siması olmamışdır. Bir nəfər imam Həsənə (ə) deyir:



Çöhrənizdə qəribə əzəmət və böyüklük görünür. Həzrət ona belə cavab verdi: “Allah buyurur ki, izzət yalnız Allaha, Onun peyğəmbərinə və möminlərə məxsusdur!”

### İmam Həsənin (ə) səxavəti və yoxsullara diqqəti

Bir nəfər imam Həsənin (ə) hüzuruna gəlib dedi: Yoxsulluq və bədbəxtlik məni incidir. İsmət ailəsi olan sizlər, məni bu zalım düşmənin əlindən qurtarın.
Həzrət xidmətçisini çağırıb, ondan yanında nə qədər pul var? – deyə soruşdu. Xidmətçi dedi: Əlli min dirhəm. İmam Həsən (ə) buyurdu: “O pulun hamısını bu kişiyə ver ki, məişəti və işinin sərmayəsinə çevrilsin, qoy yoxsulluqdan qurtarsın.”
Bir gün imam Həsən (ə) məsciddə ibadətə məşğul ikən bir kişinin dua edib belə söylədiyini eşitdi: Allahım! On min dirhəmə ehtiyacım var. Sən ey mehriban və bağışlayan Allah! Bu neməti mənə nəsib et. Bunu eşidən imam Həsən (ə) evə qayıdıb istədiyi məbləği o kişiyə göndərdi.
Yaxud imam Həsənin (ə) gənclik dövrlərində kasıb bir kişi onun yanına gəlib kömək istədi. Həmin vaxt həzrətin yanında pulu yox idi. O həzrət kişiyə buyurdu:
- Səni məqsədinə çatmaq üçün bir yerə göndərsəm razı olarsan?
- Hara?
- Bu gün xəlifənin qızı rəhmətə gedib və indi qızına əza saxlayır. Xəlifənin yanına get və sənə öyrədəcəyim ifadə ilə ona başsağlığı ver. Sən bu yolla öz məqsədinə nail olarsan.
- Xəlifəyə necə başsağlığı verim?
- Onun yanına gedib belə de: “Həmd olsun Allaha ki, qızınızın qəbri



üstündə oturmağınızla onun həyasını qoruyub, onun sizin qəbriniz üstündə oturtmağı ilə həyasını aparmadı.” (Yəni qızınız sizdən qabaq dünyasını dəyişib, torpaq altında yatmışdırsa, bu, atasının sayəsindədir. Yox əgər siz ondan tez ölsəydiniz, ola bilərdi ki, onun bir pənahı olmasın və həyasını qoruya bilməsin.)

Kasıb kişi imamın dediyi kimi də etdi. Bu söz xəlifəyə xoş təsir qoydu və onun kədərini, qəm-qüssəsini bir qədər azaltdı. Xəlifə üzünü kişiyə



tərəf tutub soruşdu: “Bu sözləri sən özündən dedin, yoxsa səni bir öyrədən olub?” O da cavab verdi ki, bunları ona Həsən ibn Əli (ə) öyrətmişdir. Xəlifə dedi: “Doğru deyirsən! O, həqiqətən fəsahətli və şirin söz mənbəyidir.”

Sonra xəlifə əmr verdi ki, ona çoxlu ənam versinlər.

## İmam Həsən (ə) təvazökarlığı

Bir dəfə neçə yoxsul torpaq üzərində oturub, quru çörək yeməklə məşğul idi. Həmin vaxt imam Həsən (ə) də onların yanından keçirdi. Onlar imam Həsəni (ə) görən kimi həzrəti yeməyə dəvət etdilər. Həzrət onların dəvətini qəbul edərək bu ayəni tilavət etdi:

“Şübhəsiz ki, Allah təkəbbürlü insanları sevmir.” Sonra onların kənarında əyləşib, birlikdə çörək yedi. Yeməkdən sonra da həzrət onları öz evinə dəvət etdi.

Onlar da həzrətin evinə gəldilər və yemək yedilər. İmam qonaqları yola salanda onların hər birinə paltar bağışladı.



## İmam Həsənin (ə) səbir və dözümü

İmam Həsənin (ə) seçilmiş xüsusiyyətlərindən biri də son dərəcə səbirli və dözümlü olmasıdır. O həzrət çətinliklər qarşısında olduqca mətanətli və sarsılmaz idi.



## İmam Həsənin (ə) helmi ilə bağlı bir əhvalat

Bir gün Şamdan olan bir qoca kişi Mədinəyə gəlir. O, yolda imam Həsəni (ə) gördükdə ona ağır sözlər deyir. İmam tam hövsələ ilə onun sözlərinin qurtarmasını gözləyir. O, susduqdan sonra imam Həsən (ə) ona salam verib, gülərüzlə belə buyurur:

"Ey qoca, belə hesab edirəm ki, qəribsən. Əgər üzr istəyərsinizsə, sizdən razı qalaram. Əgər bir istəyiniz varsa, onu etməyə hazıram. Əgər həqiqət ardıncasınızsa, sizə başa sala bilərəm. Əgər acsınızsa, sizi doyuraram. Əgər yoxsulsunuzsa, var-dövlət verərəm. Əgər paltarsızsınzsa, paltarla təmin edərəm. Əgər didərgin düşmüsünüzsə, sizə sığınacaq verərəm. Əgər möhtacsınızsa, ehtiyacını ödəyərəm. Evimiz genişdir, həm də çoxlu var-dövlətimiz var. Bəs, əgər gəlib, qonağımız olsanız, məncə sizə daha xoş olar."



Şamlı kişi həzrətin bu rəftarını görəndə ağlayaraq deyir: Şəhadət verirəm ki, sən Allahın xəlifəsi və imamısan! Allah yaxşı bilir xilafət və risaləti kimə tapşırmaq lazımdır. Ey Peyğəmbər övladı! Sizinlə görüşməzdən əvvəl, siz və atanız mənim nəzərimdə ən pis şəxsiyyətə malik idiniz. Amma indi sizi Allahın ən yaxşı məxluqu hesab edirəm.

İmam Həsən (ə) daim səbir və helmlə insanları azğınlıqdan qurtarırdı.



## Uşağın gözəl rəftarını alqışlaması

Bir gün imam Həsən (ə) gördü ki, bir uşaq çörəkdən bir tikə özü yeyir, bir tikə də yanındakı itə verir. O uşaq bir kölənin övladı idi. İmam ondan soruşdu: "Niyə belə edirsən?" Uşaq cavab verdi:

Mən Allahdan utanıram ki, özüm çörək yeyəm, ancaq o ac heyvan mənə baxdığı halda ona yemək verməyəm. Həzrət uşağın gözəl düşüncəsini sevinclə qarşılayaraq ona çoxlu paltar və azuqə bağışladı və sonra onu sahibindən alaraq Allah yolunda azad etdi.



## Uşaqlıq dövründə tədbiri

Qoca bir kişi dəstəmaz alırdı, ancaq o dəstəmazı düzgün yerinə yetirmirdi. İmam Həsən (ə) və imam Hüseyn (ə) o zaman uşaq idilər və qoca kişinin düzgün dəstəmaz almadığını gördülər. Onlar başa düşürdülər ki, belə halda ona dəstəmazın düzgün alınma qaydasını öyrətmək lazımdır. Amma onun səhv etdiyini birbaşa desəydilər, çox güman ki, narahat olardı və dəstəmaz barədə yaddaşında xolamayan xatirə qala



bilərdi. Mümkün idi ki, qoca onların bu sözünü özünə təhqir kimi hesab etsin və dəstəmazın düzgün qaydasını qəbul etməsin.

Ona görə də onlar daha nəzakətli yol seçdilər. Birlikdə belə qərara gəldilər ki, özləri dəstəmaz alıb həmin qoca kişini də onların bu hərəkətinə münsiflik etməyə çağırsınlar. Onlar qoca kişinin yanında dayanıb bir-birləri ilə mübahisə etməyə başladılar. İmam Həsən (ə) imam Hüseynə (ə) dedi: “Mən səndən daha yaxşı dəstəmaz alıram.” İmam Hüseyn (ə) isə onun cavabında: “Yox, mən səndən daha yaxşı dəstəmaz alıram” – dedi. Sonra ikisi də qoca kişiyə üz tutaraq dedilər: “Bizim dəstəmaz almağımıza baxıb, hansımızın daha düzgün dəstəmaz almağımızı söylə.” Sonra dəstəmaz almağa başladılar. Özü də hər ikisi dəstəmazlarını düzgün və tam şəkildə yerinə yetirdilər.

Qoca kişi başa düşdü ki, onlar onun düzgün dəstəmaz almadığını demək istəyirlər. Onların ədəb və zəkalarından təsirləndi və belə dedi: İkinizin də dəstəmazı düzgündür. Dəstəmaz almağı düzgün bilməyən isə mən idim. Siz cəddinizin ümmətinə sevginiz üzündən məni başa saldınız. Mən də sizə minnətdaram.




## İmam Həsənin (ə) imamlıq dövründən öncəki mübarizələri

İmam Həsən (ə) olduqca cəsarətli, qoxmaz bir şəxs idi. Belə ki, o, döyüş meydanından heç vaxt geri çəkilməzdi. Həzrət İslamın tərəqqisi üçün heç nəyi əsirgəməmiş və həmişə Allah yolunda cihad etmişdir. Cəməl döyüşündə atası Əlinin (ə) kənarında idi və həmişə meydanda düşmənlə ön cəbhədə döyüşürdü. O, həzrət Əlinin (ə) şücaətli və dilavər sərkərdələrini belə ötərək düşmən ordusunun mərkəzinə hücum edir, qorxu nə olduğunu bilmirdi.



O, Nəhrəvan döyüşündən qabaq Əmmar Yasir və atasının bir neçə dostu ilə Kufə şəhərinə getdi və camaatı cihada dəvət etdi. Həzrət Kufəyə daxil olanda sabiq xəlifələrin nümayəndəsi və həzrət Əlinin (ə) ədalətli hökumətini qəbul etməyən Əbu Musa Əşəri hələ orada idi və öz vəzifəsindən istifadə edərək camaatın imam Əliyə (ə) köməyə getməsinə mane olurdu. Bununla belə, imam Həsən (ə) Kufədən doqquz min nəfər döyüşçü toplayaraq Nəhrəvan döyüşünə getmişdi.

Həmçinin, Süffeyn döyüşündə Müaviyə ilə döyüşmək üçün qoşun toplanmasında təsirli fəaliyyət göstərirdi, öz coşqun və həyəcanlı çıxışları ilə Kufə camaatını həzrət Əliyə (ə) kömək etməyə və İslam düşmənlərinə qarşı vuruşmağa dəvət edirdi.



## Müaviyənin cinayətləri

Müaviyə, imam Əlinin (ə) sərt düşmənlərindən idi. Həzrətin şəhadətindən sonra o, öz gücünü imam Həsənin (ə) hökumətini məhv etməyə sərf etdi. Bunun üçün hər kələk və hiyləyə əl atırdı. O cümlədən, öz casuslarından iki nəfəri camaat arasında iğtişaş yaratmaq, şayiə yaymaq və ixtilaf salmaq üçün Bəsrə və Kufə şəhərlərinə göndərdi.



İmam Həsən (ə) bu məsələdən xəbər tutdu və o iki nəfəri həbs etdi. Sonra Müaviyəyə məktub yazaraq casus göndərdiyinə görə məzəmmət və təhdid etdi, belə işlərdən çəkinməsini tələb etdi.

## İmam Həsənin (ə) Müaviyə ilə sülhü

Çox ağır durum yaranmışdı. İmam Həsənin (ə) vəfalı tərəfdarı az idi. Hər gün sərkərdələrinin və qüvvələrinin Müaviyənin maddi vədələrinə aldandığını və ona qoşulduğunu görürdü. İslamı təhlükədə görən imam, onu nəyin bahasına olsa qorumaq üçün Müaviyə ilə sülh bağlamağa məcbur oldu. Ağır və acı vəziyyət imam Həsəni (ə) sülhü qəbul etməyə məcbur etsə də, bu məsələ qətiyyən o həzrətin Müaviyəyə təslim olmağı mənasını ifadə etmir. Bunu sülh müqaviləsinin mətnini nəzərdən keçirəndə, daha aydın görmək olar.

Sülh müqaviləsindən sonra da müxtəlif zamanlarda imam Həsən (ə) Müaviyə ilə sərt davranmış, onun cavabını vermiş və camaat arasında şiddətli etirazını bildirmişdir.



Sülh müqaviləsindən sonra Müaviyə Kufəyə gəldi və bir neçə gün orada qaldı. Bir gün o, Kufə məscidinə gedərək minbərə qalxıb, nitq söylədi. Müaviyə öz çıxışında imam Əlinin (ə) mübarək adını dilinə gətirdi, o həzrətə və imam Həsənə (ə) hörmətsizlik etdi. Sonra öz nəslini, ata-babalarını təriflədi, həzrət Əlinin (ə) nəslini təhqir etdi. İmam Həsən (ə) və imam Hüseyn (ə) də həmin məclisdə idilər.



Əvvəl imam Hüseyn (ə) qalxaraq onun cavabını vermək istədi. Ancaq imam Həsən (ə) onun əlindən tutub əyləşdirdi və özü ayağa qalxıb, belə buyurdu:

“Ey Əliyə (ə) qarşı nalayiq sözlər deyən! Mən Həsənəm, atam isə Əlidir. Amma sən Müaviyə, atan isə Əbu Süfyandır. Mənim anam Fatimə, sənin anan isə Hinddir (Hind məşhur zinakarlardan olub, qəbul günləri evlərinin qarşısına bayraq sancarmış. O hətta ühüd döyüşündə həzrət Həmzənin ciyərini belə çeynəmişdi). Mənim babam Allahın Rəsulu, sənin baban isə Hərbdir. Mənim nənəm Xədicə, sənin nənən isə Füteylədir. Elə isə hər kəsin əsil-nəsəbi itib-batıb, nəsli alçaq və qədimdən də şər, küfr və nifaqla doludursa, Allahın lənəti olsun ona!”

Məclisdə oturanların hamısı amin dedilər. Müaviyə heyrət bürümüş və peşman olmuş halda məclisi tərk etdi. Beləliklə, imam Həsən (ə) onun sadə adamları aldatmasına imkan vermədi.



Bir dəfə Müaviyə İmam Həsənə (ə) dedi: Mən səndən üstünəm. İmam buyurdu: “Hansı səbəbə bu sözü deyirsən?” Müaviyə dedi: Çünki camaat mənim ətrafıma toplaşdı. İmam Həsən (ə) buyurdu: “Heyhat, heyhat! (Sənin bu iddian həqiqətdən çox uzaqdır.) Ey cigəryeyən Hindin oğlu!



Camaatın sənin başına toplaşması iki hala görədir: Bir qrupu məcburiyyət üzündən, digəri isə öz ixtiyarı ilədir. Birinci dəstə barədə Quran buyurur ki, (məcburluq üzündən olduğu üçün) üzrlüdürlər. İkinci dəstə isə günahkardır. Mən heç vaxt sənə demərəm ki, mən səndən yaxşıyam. Çünki səndə bir yaxşılıq yoxdur ki, mən səndən yaxşı olduğumu deyəm (və özümü səninlə müqayisə edəm. Çünki müqayisə üçün hər iki tərəfdə eyni xüsusiyyətlər olmalıdır ki, birinin o birisindən üstünlüyünü müqayisə etmək mümkün olsun). Ancaq bunu bil ki, Allah məni çirkin xüsusiyyətlərdən, səni də yaxşı sifətlərdən uzaq etmişdir. Ona görə də üstünlük meyarı camaatın kiminsə ətrafına toplaşması deyil, insani dəyərlərdir.”



İmam Həsənin (ə) şəhadəti

İmam Həsəni (ə) öz məqsədlərinə çatmağına maneə görən Müaviyə, o həzrətin həyat yoldaşı Cödəyə çoxlu miqdarda pul, bir qədər də zəhər göndərdi və tapşırdı ki, bu zəhərdən imam Həsənə (ə) versən, bu işinin əvəzində sənə çoxlu sərvət verəcəyəm və səni oğlum Yezidlə evləndirəcəyəm.

Müaviyənin təklifinə aldanan Cödə imam Həsəni (ə) zəhərləməyi qərara aldı. Hava çox isti idi və o həzrət oruc tutduğuna görə, artıq susuzluğu tam hiss edirdi. İftar vaxtı isə daha çox susuzlamışdı.



Cödə zəhərlənmiş şərbəti iftar süfrəsinə qoydu. İmam şərbəti içən kimi onun zəhərli olduğunu bildi. Cödəyə üz tutaraq buyurdu:

"Ey Allahın düşməni, Allah səni öldürsün! And olsun Allaha, məni öldürmək üçün sənə vəd verilənə çata bilməyəcəksən. O adam (Müaviyə) səni aldadıb. Allah səni və onu əzabı ilə xar və zəlil etsin!"

İmam Həsən (ə) zəhərin təsirindən yatağa düşdü. Bir kişi həzrətin yanına gəlib dedi: Ey Peyğəmbərin övladı! Biz şiələri zəlil və Bəni Üməyyəyə qul etdin.

İmam ona buyurdu: Bunu nə üçün deyirsən?

O dedi: Çünki xilafəti Müaviyəyə verdin.

Həzrət buyurdu: "And olsun Allaha! Mənə kömək edən olmadı. Əgər kömək edənim olsaydı gecə-gündüz Müaviyə ilə müharibə edərdim ki, Allah mənimlə onun arasında hökm etsin. Kufə əhlini tanıdım və sınaqdan çıxardım. Bildim ki, onlar mənim işimə yaramırlar və öz əhdpeymanlarına vəfalı deyillər. Onların sözlərinə və rəftarlarına inanmaq olmaz. Onların dili mənimlə, ürəkləri isə Bəni-Üməyyə ilədir."

İmam Həsən (ə) danışdığı halda birdən zəhərin təsirindən ağzından qan gəldi. Həzrət ağzını teştə tutdu. Qan dayanmadan gəlirdi. Belə ki, teşt qanla doldu.

O kişi dedi: Ey Peyğəmbərin övladı! Bu nədir?

Həzrət buyurdu: Müaviyə zəhər göndərərək məni zəhərlətdi. Zəhər mənim ciyərimə çatmışdır və teştdə gördüyün bu qan mənim ciyərimin bir hissəsidir.

O kişi dedi: Bəs nə üçün müalicə etmirsən?

İmam buyurdu: "İki dəfə zəhərləyiblər və müalicə olmuşam. Bu üçüncü dəfədir və daha əlacı yoxdur."

İmam Həsən (ə) zəhərləndikdən iki gün sonra şəhid oldu.



## O həzrətin kəlamlarından:

“Siz qısa müddət və saylı günlər ərzində yaşayırsınız, ölüm isə qəfildən gəlir.”

“Düşünün, çünki düşüncə bəsirətli qəlb üçün həyat mənbəyidir.”

“Xalqla başqalarından intizar gözlədiyin kimi davran.”



# İmam Həsən (ə)

